SEPTEM.tech
ADVANCED SOFTWARE LABORATORY

# Rəqəmsal transformasiyada etibarlı partnyorunuz!

# MÜNDƏRİCAT

01 Haqqında
02 Komanda
03 Xidmətlər
04 Məhsullar
05 Üstünlüklər
06 Layihələr

# Rəqəmsal gələcəyimizin birlikdə quraq!

Bu gün biz cəmiyyəti, sənayeləri, iş proseslərini, eləcə də həyat tərzini dəyişdirən texnologiyaların sürətli inkişafı dövründə yaşayırıq. Belə dinamik mühitdə innovativ imkanlara əsaslanan qabaqcıl və çevik proqram həllərin vaxtında tətbiqi artıq seçim deyil - biznesin uğurlu inkişafını və rəqabət üstünlüyünü şərtləndirən əsas faktordur.

Dünyanın sürətlə rəqəmsallaşması, təşkilatları vaxtın və xərclərin qənaətinə, avtomatlaşdırmaya, iş proseslərin sürətli, səmərli və sadə olmasına xüsusi diqqət ayırmağa məcbur edir.

“**SEPTEM**” qabaqcıl proqram təminatı laboratoriyası Azərbaycanda proqram təminatının hazırlanması sahəsində aparıcı şirkətlərdən biri olaraq daimi öz keyfiyyətli proqram həlləri ilə biznesin inkişafı, rəqabətə davamlılığının artırılması və gələcəyə hazırlanması üçün uğurla fəaliyyət göstərməkdədir.

Zamanın çağırışlarına cavab vermək üçün Sizə dəstək olmağa və Azərbaycanımızın rəqəmsal inkişafına Sizinlə birlikdə öz töhfəmizi verməyə hər zaman məmnun olardıq.

Qarşımızda qoyulan hədəf və məqsədləri uğurla bitirəcəyimizə əmin olaraq ən cəsarətli ideyalarınızı həyata keçirmək və sürətlə inkişaf edən Cəmiyyətdə misilsiz dəyərlər yaratmaq üçün Sizinlə səmərəli əməkdaşlığa ümid edirik.

**Eldar Babalıyev**
Baş Direktor



# BÖYÜK İŞLƏR SADƏLİKLƏ!

# Dəyişən dünyaya uyğun proqram təminatı

Dünyanın inkişafında 2020-ci il bir dönüş nöqtəsi oldu. "COVID-19" pandemiyası qlobal mənzərəni və həyat tərzini dəyişdi, biznes aləmini və cəmiyyəti yenidən əhəmiyyətli dərəcədə formalaşdırmağı şərtləndirdi.

Şirkətlər sürətlə dəyişən yeni mühitə uyğunlaşmağa məcbur olduqda, mövcud rəqəmsal həllər yeni tələbləri qarşılamadığı aydın oldu. Sistemlər isə bazarın ehtiyaclarına cavab verməkdə çətinlik çəkdi və tələblərə uyğunlaşdırılması çox zaman aparacağı məlum oldu.

Bu boşluğu görərək, biz başa düşdük ki, təşkilatlara dünyanın dəyişən sürəti ilə eyni sürətlə inkişaf edən proqram təminatı çox lazımdır. Belə çağırışı bir fürsət kimi dəyərləndirərək, yalnız məhsullar və xidmətlər deyil, qabaqcıl, çevik və hər zaman dəyişən ehtiyaclara uyğunlaşa bilən proqram həlləri təqdim edəcək tam fərqli bir şirkət qurmaq üçün yola çıxdıq.

Bu məqsədlə, strateji düşüncə tərzli dinamik idarəetmə komandası ilə yanaşı, yüksək ixtisaslı peşəkarlardan ibarət bir komandanı bir araya gətirərək, "**SEPTEM**" qabaqcıl proqram təminatı laboratoriyası quruldu.

İlk gündən biz özümüzü müştərilərimizin unikal ehtiyaclarını başa düşməyə, bazarın trendlərini proqnozlaşdırmağa, yüksək sürət, dəqiqlik və çevikliyə fokuslanaraq qabaqcıl və müstəsna həllərin yaradılmasına həsr etdik.



# 5 il sizinlə

# Rəqəmsal gələcəyə doğru







Artıq 5 ildir ki, birlikdə böyüyür, inkişaf edir və yeni zirvələr fəth edirik! Bu illər ərzində qazandığımız təcrübə, güclü komanda ruhu, keçdiyimiz sınaqlar, qazandığımız etibar və uğurlar bizi daha da irəli aparır. Gələcəkdə daha böyük nailiyyətlər üçün birgə addımlamağa davam edirik!

# Biz Kimik.

Biz müştəri yönümlü, həllərə fokuslanan, istedadı yüksək dəyərləndirən və texnologiyalardan asılı olmayan peşəkar, etibarlı və innovativ proqram təminatı laboratoriyasıyıq.

# Dəyərlər

## Məsuliyyət
Öhdəliklərin icrası və uyğun həllərin tətbiqi

## Dürüstlük
Deyilən və görülən hər işdə tam şəffaflıq

## Davamlılıq
Məqsədlərə və dəyərlərə daim sadiqlik

# Missiya

Müxtəlif sahələrdən mütəxəssisləri bir araya gətirərək, xüsusi bacarıq və təcrübələri birləşdirmək, mürəkkəb çağırışlara cavab vermək üçün qabaqcıl və innovativ həllər yaratmaq. Yeni imkanları və texnologiyaları araşdıraraq, sadə həllər ilə böyük nəticələr əldə etmək və yeni dəyərlərə yol açmaq.



# İşimizdə daim rəhbər tutduğumuz prinsiplər

S

## Sadəliyin təşviqi

Mürəkkəbliyi, məhsuldarlığı artıraraq həll edirik və praktikliyə önəm veririk.

T

## Texniki üstünlük

Texniki mükəmməlliyə yüksək diqqət və böyük əhəmiyyət veririk.

E

## Erkən çatdırılma

İşlək proqram təminatının erkən və mütəmadi çatdırılmasını təmin edirik.

E

## Etibarlı əməkdaşlıq

Çağırışları alqışlayır və müştərlərinin üstünlüyü üçün dəyişikliyi qəbul edirik.

P

## Proaktiv tərəqqi

Davamlı tərəqqini təşviq edir və müstəsna icraçılığa doğru çalışırıq.

M

## Motivasiya təbliği

Əlverişli və pozitiv işgüzar mühitdə motivasiyalı və peşəkarlar ilə çalışırıq.

# Mümkünsüz bir şey yoxdur!



“SEPTEM” şirkəti olaraq texnologiyanın mürəkkəbliyini aradan qaldırmaq və iş dünyası üçün yenilikləri daha əlçatan etmək missiyasını daşıyırıq. Bizim üçün əsas prioritet, müştərilərimizə sadə, rahat lakin güclü və səmərəli həllər təqdim etməkdir.

İnnovativ yanaşmamız, yüksək keyfiyyətli məhsullarımız və müştəri yönümlü xidmətlərimiz sayəsində hər bir layihəni daha effektiv və rahat bir şəkildə həyata keçiririk.

Texnologiyanı Sizin üçün asanlaşdırırıq və gələcəyin uğurlarına bir addım daha yaxınlaşmağınıza kömək edirik. Biz inanırıq ki, böyük nailiyyətlər sadəliyin gücü ilə əldə olunur və bu yanaşma bizim hər bir işimizdə öz əksini tapır.

# Davamlılıq və inkişaf:
# Son 3 ilin nəticələri

İlk gündən şirkətimiz ardıcıl və davamlı inkişaf edərək bazarda etibarlı və peşəkar tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Bu, bizim üçün yalnız bir zaman göstəricisi deyil, uzunmüddətli öhdəliyimizin və missiyamıza sadiqliyimizin bariz sübutudur.

Müştərilərimizin etimadı, inamı və davamlı dəstəyi sayəsində, hər biri ilə yalnız innovativ rəqəmsal həllər təqdim etməklə kifayətlənməyib, onlarla uzunmüddətli, etibarlı tərəfdaşlıq qurmaqda da müvəffəq olmuşuq.
Davamlı inkişafımız ardıcıl son üç ilin əsas göstəricilərində öz əksini tapır. Bu dayanıqlı böyümə, mükəmməlliyə və uzunmüddətli dəyər yaratmağa olan sadiqliyimizin göstəricisidir. Biz aydın bir vizyonla yanaşı məqsədyönlü şəkildə sürətlə hərəkət edirik və daim texnologiyaya, insanlara və strateji tərəfdaşlıqlara sərmayə qoyuruq.

Rəqəmsal transformasiyaya töhfə verməklə, cəmiyyətin inkişafına dəstək olmaq məqsədilə avtomatlaşdırmanı artırır, əməliyyatları optimallaşdırır və innovasiyaları təşviq edirik.



“

*Kod yazmadan əvvəl problemi müəyyən et!*

Əli Kərimzadə
Senior Full Stack Developer

## Layihələr

**25%** Layihə sayının **artım əmsalı***

**17%** | **İrimiqyaslı layihələr** əmsalı**

* Ardıcıl son 3 ildə orta illik davamlı artım göstəriciləri

** İrimiqyaslı layihələrin ümumi layihə sayında payı

## Müştərilər

**34 %** Təkrar müştəri **artım əmsalı***

**67%** | **Yeni müştərilərin** artım əmsalı

**19%** | **Dövlət təşkilatlarının** portfeldə payı**

* Hər 3 sifarişdən 1-i təkrar müştərilərin yeni sifarişləridir

** Ümumi müştərilərimiz portfelində dövlət qurumlarının nisbəti

## Komanda

**42%** Komandanın **artım əmsalı***

**48%** | **Komandanın yetkinlik** əmsalı**

**10+** | Senior işçilərin **təcrübəsi** (illər)

* Təcrübəli və senior işçilərinin ümumi işçi sayında payı

** Əməkdaşlarımızın son 3 ildə orta illik artım göstərici

# Fərdi ehtiyaclara uyğun geniş xidmət portfeli

Bizim əsas məqsədimiz innovativ və dayanıqlı texnoloji həllər inkişaf etdirməklə müştərilərimizə rəqəmsal transformasiya sahəsində üstünlük qazandırmaqdır.

“**SEPTEM**” yüksək texnoloji həllər üzərində çalışan dinamik və çevik bir şirkətdir. Burada biz, xüsusilə proqram təminatı və infrastruktur sahəsində müasir yanaşmalar tətbiq edərək, müştərilərimizin ehtiyaclarına uyğun effektiv sistemlər və rəqəmsal həllər yaradırıq. Texnologiyalarının biznesə verdiyi imkanları maksimum şəkildə istifadə edərək, şirkətlərin rəqabət qabiliyyətini artırmaq üçün çalışırıq.

Biz yalnız mövcud texnologiyalardan istifadə etmirik, eyni zamanda sektorda yeni trendləri müəyyənləşdirərək bazara yön verən uyğun həllər inkişaf etdiririk. Texnologiya və biznesin kəsişdiyi bu nöqtədə, innovasiya və effektivliyi birləşdirərək müştərilərimizə dəyər yaratmaq əsas missiyamızdır.

Xidmətlərimiz təkcə proqram təminatının yaradılması ilə məhdudlaşmır, həm də texniki dəstək, optimallaşdırma və bizneslərin uzunmüddətli inkişafına yönəlmiş strateji həlləri əhatə edir. Müştərilərimizə davamlı dəstək verərək, onlarla uzunmüddətli əməkdaşlıq münasibətləri qurmağa üstünlük veririk.

**Rasim Nabadov**
Texniki Direktor



# Bütün inkişaf proseslərini əhatə edən xidmətlərimiz

## Kompleks Xidmətlər

- Ehtiyacların təhlili və texniki tələblər
- Müasir və intuitiv interfeys dizaynları
- Hibrid və native mobil tətbiqlər
- Adaptiv və responsiv veb sistemlər
- Müxtəlif sistemlər ilə inteqrasiyalar
- Davamlı və peşəkar texniki dəstək

## Təminat Növləri

- Mobil tətbiqlər
- Veb tətbiqlər
- Masaüstü tətbiqlər

## Texniki Dəstək

- Modifikasiyalar
- Yeniləmələr
- 24/7 Dəstək

# Kompleks xidmətlər

### EHTİYACLARIN TƏHLİLİ VƏ TEXNİKİ TƏLƏBLƏR

Biznes proseslərini dərindən anlamaqla, təşkilatın real ehtiyaclarına cavab verən texniki tapşırıqlar hazırlayırıq. Bu mərhələdə yalnız cari tələblərə deyil, həm də gələcək inkişaf imkanlarına uyğun, strateji baxışla təhlillər aparılır.

### MÜASİR VƏ İNTUİTİV İNTERFEYS DİZAYNLARI

Yararlılıq və estetik harmoniyanı birləşdirən dizayn yanaşmamız, istifadəçi təcrübəsini sadə və funksional şəkildə qurmaqla, gündəlik əməliyyatlara real dəyər qatır. Hər bir interfeys istifadəçinin davranışına uyğunlaşdırılır və məhsulun uğuruna xidmət edir.

### DAYANIQLI VƏ PEŞƏKAR TEXNİKİ DƏSTƏK

Bizim dəstəyimiz bir addım irəlidədir — yalnız problemləri aradan qaldırmaqla kifayətlənmir, həm də onların yaranmasının qarşısını almağa yönəlmiş inkişaf etdirici tədbirləri əhatə edir.

### “ADAPTIVE” VƏ “RESPONSIVE” VEB SİSTEMLƏR

İstifadə etdiyimiz texnologiyaların mərkəzində çeviklik və təhlükəsizlik dayanır. İnkişaf etdirdiyimiz veb həllər bütün cihaz və platformalara uyğunlaşmaqla yanaşı, əməliyyatların avtomatlaşdırılması və məhsuldarlığın artırılması üçün optimallaşdırılır.

### “HYBRID” VƏ “NATIVE” MOBİL TƏTBİQLƏR

Rəqəmsal məhsul ideyalarının gerçəyə çevrilməsi üçün prototiplərin sürətli hazırlanması və istifadəçi əks əlaqəsi üzərində qurulmuş iterativ yanaşmamız fərq yaradır. Mobil tətbiqlərimiz həm performans, həm də funksionallıq baxımından üstün təcrübə təqdim edir.

### SABİT VƏ TƏHLÜKƏSİZ SİSTEM İNTEQRASİYALARI

Daxili və xarici sistemlərin bir-biri ilə problemsiz işləməsi üçün peşəkar inteqrasiya xidmətləri təqdim edirik. Komandamız təhlükəsizlik və bütövlük prinsipləri ilə işləyərək kompleks ekosistemlərə rahat keçidləri təmin edir.

# Təminat növləri

## MOBİL TƏTBİQLƏRİN HAZIRLANMASI

Biz müxtəlif mobil cihazlarda çalışan B2B, B2C, B2G və B2E fərqli mobil tətbiqlər hazırlayırıq. Komandamız müxtəlif texnologiyalar istifadə etməklə “hybrid” və “native” mobil tətbiqlər yaradır.

## VEB SİSTEMLƏRİN HAZIRLANMASI

Biz istifadəçiləri cəlb edən və kritik iş axınlarını təmin edən fərdi səhifələrdən tutmuş mürəkkəb təşkilat miqyaslı sistemlərə qədər interaktiv veb sistemləri yaradırıq.

## MASAÜSTÜ TƏTBİQLƏRİN HAZIRLANMASI

Biz Sizə ən yüksək keyfiyyətli masaüstü həllər də təklif edə bilərik. Müştərilərimizə masaüstü proqramların hazırlanması xidmətləri göstərən zəngin təcrübəmizlə bir çox ideyaları həyata keçirmişik.



# Texniki Dəstək

- Uyğunsuzluqların səbəblərinin müəyyən edilməsi və lokallaşdırılması
- Uyğunsuzluqların operativ aradan qaldırılması
- Uyğunsuzluqların qarşısının alınması üzrə tövsiyyələrin hazırlanması
- Proqram təminatının funksionallığı ilə bağlı sualların cavablandırılması
- İstifadə olunan versiyanın çıxan yeni versiya ilə əvəz olunması
- İstifadəçi tərəfindən buraxılan texniki səhvlərin aradan qaldırılması
- İstifadəçinin buraxdığı texniki səhvlərdən irəli gələn fəsadların aradan qaldırılması
- İcrası bir saatdan çox olmayan yeni əlavə və dəyişikliklərin edilməsi

# Startaplar

Məhsul inkişafında dərin təcrübəyə malik bir proqram təminatı şirkəti olaraq, startapların qarşılaşdığı çətinlikləri çox yaxşı bilirik. Startap məhsullarının hazırlanmasında qazandığımız geniş təcrübə və eyni zamanda beş öz məhsulumuzun inkişafı bizə bazara yeni və ixtisaslaşmış bir həll çıxarmağın bənzərsiz çətinliklərini və ehtiyaclarını dərindən anlamağa imkan verib.

Fədakar peşəkar komandalarımız keyfiyyət və innovasiyadan ödün vermədən, ən optimal texnologiya yığını vasitəsilə tam dövrlü proqram təminatı inkişafı xidmətləri təqdim edir.

Bir çox sahələr üzrə dərin biliklərimizə əsaslanaraq, startap komandaları ilə çiyin-çiyinə işləyir, onların mürəkkəb proqram həlləri yaratmasına və məhsullarını bazara daha sürətli çıxarmasına dəstək oluruq.



# Startap Xidmətləri

## MƏHSUL İDEYASININ TƏHLİLİ

Biz startap ideyaları geniş şəkildə ilkin təhlil edir, rəqabət mühitini və istifadəçi tələbatını öyrənir, texniki reallaşma imkanlarını qiymətləndiririk. Bu mərhələ sayəsində riskləri azaldır və uğurlu məhsulun bazara çıxması üçün əsasları möhkəmləndiririk.

## ARXİTEKTURANIN DİZAYNI

Startapın texniki əsaslarını gücləndirmək məqsədilə, müasir və miqyaslana bilən proqram təminatı arxitekturası yaradırıq. Bu arxitektura gələcəkdə məhsulun sürətli inkişafını, yeni funksiyaların əlavə olunmasını və yüksək sistem performansını təmin edir.

## FRONT-END İŞLƏRİN GÖRÜLMƏSİ

İstifadəçilərin qarşılıqlı əlaqəsini gücləndirən və məhsulun vizual cazibəsini artıran müasir, responsiv və funksional interfeyslər hazırlayırıq. Texniki və dizayn tələblərinə uyğun, bütün cihaz və brauzerlərdə problemsiz çalışan tətbiqlər təmin edirik.

## PROTOTİPLƏR VƏ UI/UX DİZAYN

İdeyanın ilkin formalarını real istifadəçi təcrübəsi ilə sınamaq üçün yüksək keyfiyyətli və funksional prototiplər hazırlayırıq. İstifadəçi interfeysləri dizaynında ən müasir metod və standartlardan istifadə edərək, məhsulun istifadəsinin rahat, intuitiv və cəlbedici olmasını təmin edirik.

## MOBİL TƏTBİQLƏRİN HAZIRLANMASI

Mobil platformalarda uğur qazanmaq üçün həm iOS, həm Android üçün “native”, həm də “cross-platform” tətbiqlər hazırlayırıq. Tətbiqlərimiz yüksək performanslı, təhlükəsiz və istifadəçi dostudur. Əlavə olaraq, tətbiqin işə başlaması və sonrakı dəstəyi üçün tam xidmət təqdim edirik.

## BACK-END İŞLƏRİN GÖRÜLMƏSİ

Mürəkkəb biznes proseslərini dəstəkləyən və məlumat təhlükəsizliyinə önəm verən, yüksək performanslı arxa plan sistemləri yaradırıq. Bizim back-end həllərimiz miqyaslana bilәndir, etibarlı işləyir və proqram təminatının digər hissələri ilə problemsiz inteqrasiya olunur.

# Rəqəmsal həllərimiz - yüksək səmərəliliyin təminatıdır

**Proqram təminatı sahəsində 10 ildən artıq təcrübəyə malik peşəkarlarımız qabaqcıl texnologiyalardan istifadə edərək istifadəçi yönümlü və etibarlı məhsullar yaratmışdır.**

Məhsullarımız müştərilərə innovativ həllərin tətbiqinə, mövcud biznesi rəqəmsallaşdırmağa, prosesləri optimallaşdırmağa, yüksək performansı dəstəkləməyə və rəqabətədavamlı üstünlük yaratmağa kömək edir.

Geniş funksionallığın vizual elementləri ilə düzgün balanslaşdırılmış məhsullarımız, istifadəyə rahat, praktik, intuitiv başa düşülən və istifadəçi ehtiyaclarına asanlıqla və sürətlə uyğunlaşdırıla bilir.

Məhsulların arxitekturası komponentlərin bir-biri ilə qarşılıqlı əlaqəsi, fəaliyyət göstərdikləri mühit, proqram təminatı dizaynında istifadə olunan prinsiplər, məntiqi və funksional təşkili prioritetləri əsasında qurulub. İnterfeyslərimiz xırda detallara diqqət yetirməklə tərtib edilir və istənilən cihazlarda əla görünür.

Seçdiyimiz arxitekturalar, dizayn alətləri və texnologiyalar işlək sistemlərin davamlılığına və təhlükəsizliyinə təminat verir.

Məhsulların qurulmazdan əvvəl davranışının təhlili və müştəri ehtiyaclarına uyğunluğunun yoxlanılması isə riskləri azaltmağa imkan verir.



“

*Uğursuzluq barədə narahat olma. Heç cəhd etmədən buraxılan fürsətdən narahat ol!*

**Elvin Həbibov**
Mobil Team Lead

# Məhsullar Portfeli

**7ERP**

Şirkət Resurslarının
İdarəetmə Sistemi

**7MADS**

Video Reklam
Sistemi

**7CORE**

Modelləşdirmə və Avtomatik
Kodlaşdırma Sistemi

**7HRM**

İnsan Resurslarının
İdarəetmə Sistemi

**7CALL**

Avtomatik Zəng
Bildirişləri Sistemi

**7GYM**

İdman Zalı
İdarəetmə Sistemi

**7DOC**

Elektron Sənəd
Dövriyyəsi Sistemi

**7FAR**

Maliyyə Hesabatlığı
Sistemi

**7QMS**

Elektron Növbə
Sistemi

# 7ERP

"7ERP" Sistemi təşkilata aid layihələrin icrası, maliyyə vəsaitlərinin, təchizatın, insan resurslarının, müqavilələrin və digər resursların idarəolunmasına aid bütün məlumat və prosesləri əhatə edir.

## Sistemin modulları

- Anbar modulu
- Müqavilələr modulu
- Təchizat modulu
- Kargüzarlıq modulu
- Maliyyə modulu
- Əmək haqqı modulu
- Layihələr modulu
- İnsan Resursları modulu



# 7HRM

https://7hrm.az

Geniş funksionallığa, yüksək təhlükəsizliyə, işçi kabinetə və mobil tətbiqə malik 7HRM sistemi mövcud qanunvericiliyin tələblərinə tam cavab verir. Sistemin modulları əmək haqqlarının avtomatik hesablanmasını təmin edir.




## Üstünlüklər

### Səmərəlilik

İşçilər, əmək haqqılar və kadr sənədlərinin daha səmərəli, sadə idarəetməsi, təşkili və həyata keçirilməsi.

### Təhlükəsizlik

Fasiləsiz 24/7 rejimində çalışan sistemin istifadəçilərin və bazada arxivləşdirilən bütün məlumatların tam təhlükəsizliyi.

### İnteqrasiya

Təşkilatın istifadə etdiyi müxtəlif digər platformalar ilə inteqrasiya imkanları.

### Qənaət

Kadr kargüzarlığının optimallaşdırılması, HR proseslərə və sənədlərlə işə sərf olunan vaxtın və xərclərin azaldılması.

# Xüsusiyyətlər

## Kadr Kargüzarlığı

Təşkilatın kadr inzibatçlığı zamanı sənədləşmə işlərin avtomatlaşdırması, tam elektron, bir pəncərədə, asanlıqla yerinə yetirilməsi.

## Əmək Haqları

Əmək qanunvericiliyinin tələblərinə uyğun əmək haqqlarının, sosial təminat, həyat sığortası və s. ödənişlərin avtomatik hesablanması.

## İşçi Məlumatları

İşçinin fəaliyyəti ilə bağlı təşkilatın olan bütün məlumatlar, sənədlər vahid bazada, elektron şəkildə saxlanılması və asan əlçatan edilməsi.

## Əsas Hesabatlar

Qanunvericiliyinə uyğun vergilərin,işçi stajı, statusu, güzəştləri və s əlavələrin hesablanması, icbari və operativ idarəetmə üçün tələb olunan hesabatlarının formalaşdırması.



# 7DOC

"7DOC" – SEPTEM Qabaqcıl proqram təminatı Laboratoriyası tərəfindən hazırlanmış təşkilatın bütün sənədlərinin qorunması, sənəd dövriyyəsi işinin avtomatlaşdırılmasını təmin edən vahid rəqəmsal sənəd dövriyyəsi sisemidir.

https://7doc.az

## Xüsusiyyətlər

- **Ərizə və məktubların qeydiyyatı, dərkənarın göndərilməsi və icrası**
- **Sənədlərlə bağlı müxtəlif növ hesabatların alınması**
- **Daxili sənədlərin, əmr və qərarların qeydiyyatı və icrası**
- **Daxil və xaric olan sənədlər üzrə elektron arxivin yaradılması**
- **Sənəd statuslarına və icrasına mərkəzləşdirilmiş nəzarət**
- **Digər modullar ilə geniş inteqrasiya imkanları**



# 7MADS

Açıq havada və qapalı məkanlarda quraşdırılmış monitor və müxtəlif media reklam yayım platformalarında media reklamların sayla və vaxtla yayılmasını və idarə edilməsini təmin edən veb və terminal əsaslı kompleks sistemidir.

https://7mads.az

## Xüsusiyyətlər

### Funksionallıq

Sistemin unikal funksionallığı terminalların maksimum effektiv istifadəsi, proseslərə nəzarətin rahat təşkili, yayımların çevik idarə edilməsinə imkan verir.

### Kontent planlanması

Multifunksional Planlama aləti vasitəsilə mövcüd terminallarda lokasiya və zaman üzrə bütün video reklamların yayımlarını vaxt sərf etmədən rahatlıqla əvvəlcədən planlamaq mümkündür

### Uzaqdan idarəetmə

Bütün mövcud terminallarda yayımla-nan video kontentin və səsin birbaşa mərkəzdən idarəetmə paneli vasitəsilə rahat həyata keçirilir

### Yayım nəzarəti

Sistemdə qeydə alınan terminallarda yayımlanan video kontenti İdarəetmə Pan-eli vasitəsilə istənilən an izləmək, nəzarət etmək və əməliyyat aparmaq olar



# İşinizi peşəkar komandaya əmanət edin!

Developerlərimiz proqram təminatının hazırlanmasında 10 ildən çox təcrübəsi olan aparıcı ekspertlərdir. Biznes məqsədlərinə çatmağa kömək edən fərdi həllər təqdim etmək üçün istənilən təşəbbüs və çağırışları alqışlayırıq.

Məhsul strategiyasının planlaması və icrasında Agile yanaşmanın dərin tətbiqi komandalaramıza əlaqəli işləməyə, məqsədlərə çatmağa, sürətli əks əlaqə almağa, məhsulların təkmilləşməsinə, sprintləri çevik bitirməyə və xərcləri azaltmağa kömək edir.

Müxtəlif bizneslər və texnologiyalar sahəsində praktik təcrübəmiz proqram məhsullarının hazırlanması üçün ən düzgün və uyğun alətlər, yanaşmalar, platforma və proqramlaşdırma dillərini seçməyə imkan verir.

Komandalarımız Müştəri tələblərindən uyğun proqram təminatı hazırlanmasının bütün komponentlərini təmin edir. Tələblərin təhlili, məhsulun hazırlanması, test olunması, yerləşdirilməsi və istifadəyə verilməsi daxil olmaqla, proqram təminatını tam əhatə edir.

Peşəkar komandamız müştəri ehtiyaclarından asılı olaraq proqram təminatının hazırlanmasının bütün komponentlərini təmin edir.

**Riyad Hüseynov**
Biznesin İnkişafı Direktoru



# Davamlılıq və əzmkarlıq etibarlı uzunmüddətli əməkdaşlığın zəmanətidir!

# Komanda rəhbərləri

Bizim komandamız – yenilikçi düşüncəyə, güclü əməkdaşlığa və yüksək peşəkarlığa əsaslanan bir ailədir.

Hər bir üzvümüz öz sahəsində mütəxəssis olmaqla yanaşı, birlikdə böyük uğurlara imza atmaq üçün çalışır. Biz inanırıq ki, güclü komanda ruhu uğurun əsas açarıdır.



**Taleh Əliyev**
Development Team lead



**Rasim İsmatulin**
Development Team lead



**Alauddin Nurmətov**
Development Team lead



**Sahib Babaliyev**
Product Team lead



**Yusif Məmmədov**
Design Team Lead



**Elvin Həbibov**
Mobile Team lead

# Böyük həllərə aparan sadə və effektiv həllər!

Komandalarımız strukturlaşdırılmış şəkildə qabaqcıl həllərin sürətli və səmərəli şəkildə qurulması üçün proqram təminatının hazırlanmasında xüsusi yanaşma vasitəsilə ən doğru və uyğun təcrübə proseslərindən və metodologiyalarından istifadə edir.

Məhsul və xidmətlərin fərdiləşdirilməsi və daha sürətli bazara çıxarılması müştərilərimizə əlavə dəyərlər yaradır.

Layihə strategiyası, planlaması və icrasında «Agile» yanaşmasının dərin tətbiqi komandalaramıza əlaqəli işləməyə, məqsədlərə çatmağa, sürətli əks əlaqə almağa, məhsulların təkmilləşməsinə, sprintləri çevik bitirməyə və xərcləri azaltmağa kömək edir.

İstər mobil tətbiqlərin və bulud əsaslı veb sistemlərin istərsədə fərdi masaüstü sistemlərin yaradılmasında Laboratoriya tərəfindən hazırlanan unikal “7CORE” platformasının geniş istifadəsi komandalarımıza yeni məhsulların yaradılmasını daha çevik, tez, səhvsiz və optimal xərclər ilə uğurla bitirməyə imkan verir və müştərilər üçün əhəmiyyətli üstünlük yaradır.

**Zöhrab Şirinov**
Kommersiya Direktoru



# Mürəkkəb çağırışlara innovativ və sadə yanaşma.

# Təhlildən dəstəyə kimi bütün proseslərə kompleks yanaşma

## Təhlil

İstifadəçi tələbləri arxasında duran məqsədləri və təşkilatın gələcək vizyonunu anlayaraq, təhlil mərhələsində, uzunmüddətli dəyər yaradan texniki tapşırıqlar formalaşdırılır.

## Dizayn

İstifadəçi davranışı və ehtiyaclarına əsaslanan funksional və intuitiv dizaynlar yaradırıq. Hər bir dizayn qərarı son istifadəçinin rahatlığı və təşkilatın məqsədlərinə xidmət edir.

## Hazırlama

Kodun sabitliyini və gələcək inkişaf imkanlarını ön planda tutaraq, uzunömürlü və miqyaslana bilən həllərimiz dəyişən ehtiyaclara adaptasiya üçün açıq və çevik olur.

## Test

Problemsiz və dayanıqlı işləyən həllər təqdim etmək üçün istifadəçi təcrübəsini, real həyat ssenarilərini və risk analizini nəzərə alan çoxşaxəli test mərhələsi həyata keçirilir.

## Quraşdırma

Hazırlanmış proqram təminatı istənilən mühitinə uyğun optimallaşdırır. Təhlükəsizlik şəkildə təşkilatın real əməliyyatlarına uyğun fərdiləşdirilir və son istifadəyə verilir.

## Təlim

İstifadəçilərin həllərimizin tam mənimsəməsi və gündəlik işlərinin asanlaşdırması üçün fərqli istifadəçi rolları və real iş axınlarına uyğun, praktik təlim sessiyaları təşkil edirik.

## Dəstək

Etibarlı bir texnoloji tərəfdaş olmaq üçün biz istifadəçilərlə daim əlaqədə olur, ehtiyacları proaktiv şəkildə təyin edir və dayanıqlı işləməsi üçün inkişaf etdirici tədbirlər görürük.

# 7CORE Məhsuldarlığı artıran çevik və sürətli platforma

"7CORE" Platformasının imkanları hesabına proqram təminatına əlavələrin edilməsi əhəmiyyətli dərəcədə sürətli və sadə həyata keçirilməsi developerlərimizə çox az vaxt sərf etməyə və nəticədə Sifarişçilərin vaxtına və büdcəsinə xeyli qənaet etməyə təminat verir.

"7CORE" Platformasında developerlərimiz istənilən istifadəçilər və onların səlahiyyətləri və Sistemi daxilində apara biləcəyi əməliyyatları, məlumatların axınlarını, sənədlərin yaradılması və hərəkətlərini, iş proseslərin dizayn olunmasını və işlərin icrasının monitorinqin təşkili asanlıqla həyata keçirə bilir.

"7CORE" Platformasının əsas üstünlüyü odur ki hər hansı bir əməliyyat üçün yenidən kod yazmağa ehtiyac qalmır, kifayətdir ki proses məntiq təsviri formatda strukturlaşdırılsın.



# Fərqlilik yaradan üstünlüklərimiz

Son beş il ərzində şirkətimiz ardıcıl inkişaf edərək bazarda etibarlı və peşəkar tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Bu, bizim üçün yalnız bir zaman göstəricisi deyil, uzunmüddətli öhdəliyimizin və missiyamıza sadiqliyimizin sübutudur. Müştərilərimizin etimadı, inamı və davamlı dəstəyi sayəsində, yalnız innovativ rəqəmsal həllər təqdim etməklə kifayətlənməyib, onlarla uzunmüddətli, etibarlı tərəfdaşlıq qurmaqda da müvəffəq olmuşuq.

Davamlı inkişafımız son üç ardıcıl ilin əsas göstəricilərində öz əksini tapır. Bu dayanıqlı böyümə, mükəmməlliyə və uzunmüddətli dəyər yaratmağa olan sadiqliyimizin göstəricisidir. Biz aydın bir vizyonla yanaşı məqsədyönlü şəkildə sürətlə hərəkət edirik və daim texnologiyaya, insanlara və strateji tərəfdaşlıqlara sərmayə qoyuruq. Rəqəmsal transformasiyaya töhfə verməklə, cəmiyyətin inkişafına dəstək olmaq məqsədilə avtomatlaşdırmanı artırır, əməliyyatları optimallaşdırır və innovasiyaları təşviq edirik.



*Sadəlik Səmərəliliyin ruhudur!*

Rasim Nabadov
Texniki Direktor

# ETİBARLILIQ

Davamlılıq ,Dəstək, Partnyorluq

**Davamlılıq:** 5 illik bazar təcrübəmiz və uzunmüddətli inkişaf strategiyamız sayəsində sabit və etibarlı həllər təqdim edirik.

**Dəstək:** Güclü texniki dəstək komandamız hər zaman operativ reaksiya göstərir və fasiləsiz xidmətin təminatçısıdır.

**Partnyorluq:** Müştərilərimizlə uzunmüddətli və qarşılıqlı güvənə əsaslanan əməkdaşlıq quraraq onların böyüməsinə töhfə veririk.

# SÜRƏT

Təcrübə, Yanaşma, Texnologiya

**Təcrübə:** Müxtəlif sahələrdə qazandığımız bilik və bacarıqlar sayəsində layihələri daha sürətli və effektiv şəkildə icra edirik.

**Yanaşma:** Agile metodologiyasını geniş tətbiq edərək çevik qərarlar qəbul edir və proseslərə operativ uyğunlaşırıq.

**Texnologiya:** Ən uyğun texnologiyalar və geniş portfelimiz sayəsində layihələri daha tez və yüksək keyfiyyətlə təqdim edirik.

# KEYFİYYƏT

Komanda, Sahiblik, Tam əhatə

**Komanda:** Təcrübəli və yüksək ixtisaslı peşəkarlar ilə hər layihəni mükəmməlliklə həyata keçiririk.

**Sahiblik:** Hər bir layihəyə öz işimiz kimi diqqətlə yanaşır, məsuliyyəti tam şəkildə üzərimizə götürürük.

**Tam əhatə:** Layihənin əvvəlindən sonuna qədər bütün proqramlaşdırma işlərini özümüz görürük.

# Texnologiya ekosistemimiz

## Dizayn alətləri

- Adobe XD
- Figma

## Sistem arxitekturası

- DDD
- SOA
- Monolith
- Micro services

## Mobil texnologiyalar

- Native iOS
- Native Android
- Flutter
- React

# Texnologiya ekosistemimiz

## Verlilənlər bazası

- Postgre
- MySQL
- Mongo
- MSSql
- Oracle

## DevOps alətləri

- Docker
- GitLab
- Kubernetes

## Veb texnologiyalar

- React.JS
- ASP.NET Core MVC
- VUE.JS
- C#
- ASP.NET

# Uğurumuzun sirri – müştərilərimizin yüksək etimadıdır!

Uğurlarımızın ən doğru ölçüsü müştərilərimizin yüksək məmnuniyyəti və bizə göstərdikləri etibardır. Təhvil veridiymiz layihələr qurulmuş uzunmüddətli münasibətlərin və inamın nəticəsidir. Bu baxımdan, müştərilərimizin tövsiyyələri, gördüyümüz işin keyfiyyətini və etibarlılığını təsdiqləyən ən yüksək mükafatıdır. Müştəri etimadı – bizim ən böyük nailiyyətimizdir.



# Nailiyyətlərimiz



AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ

Pirallahı Yüksək Texnologiyalar Parkının

QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ

Pirallahı Yüksək Texnologiyalar Parkından kənar proqram təminatının hazırlanması və inkişafı sahəsində fəaliyyətinə icazə verilir

Qeydiyyat № 00323048545

"SEPTEM"
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

VÖEN: 1804854511
Ünvan: BAKI ŞƏHƏRİ, SABUNÇU RAYONU, BAKIXANOV ŞTQ, SAKİT QOCAYEV, ev 29, mənzil 32
Qeydiyyata alındığı tarix: 28.04.2023

Fərid Əhmədov
Azərbaycan Respublikası
rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini



LİSENZİYA

Qeydiyyat nömrəsi 338 „01 „avqust 2023-cü il

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
(lisenziya verən orqanın adı)

Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 77
(lisenziya verən orqanın ünvanı)

Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya
(lisenziya verilən fəaliyyət növü)
sistemlərinin yaradılması, onlara xidmətlərin göstərilməsini

hayata keçirməyə icazə verir.

Lisenziya verilib "Septem" Məhdud Məsuliyyətli Cəmiyyətinə
(hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və
Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, S.Qocayev küç, ev 29, mən 32.
hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, VÖEN)
VÖEN 1804854511

Lisenziyanı imzalayan vəzifəli şəxs Rəşad Nəbiyev
(adı və soyadı)

Vəzifəsi Nazir

M.Y.



# Doğru seçim edən müştərilərimiz

Ölkəmizin proqram təminatının hazırlanması sahəsində ilk və yeganə qabaqcıl laboratoriya olaraq onlarla müxtəlif layihələri uğurla istifadəyə vermişik.

Bitirdiyimiz hər bir layihənin uğurlu olması xüsusi üstünlüklərimizin, fərdi yanaşmamızın, peşəkar komandamızın, tükənməz həvəsimizin və müştəri qarşısında məsuliyyətimiz hesabına mümkün olmuşdur. Yeni həllər və dəyərlər yaratmaq və texnologiyanın inkişafına töhfə vermək məqsədinə doğru inamlı irəliləyişlər sayəsində biz yalnız bazarda deyil, həm də sosial inkişafda liderlik etməyə davam edirik.



*Kodlaşdırma sadəcə kod deyil. İnsanlara və cəmiyyətə xidmət edən bir dəyərdir!*

**Taleh Əliyev**
Development Team Lead

# Tərəfdaşlarımız 100+

Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi

Azərbaycan Standartlaşdırma İnstitutu

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Premium Bank

IDI International Development Ireland

Medcom Medical Company

Azchemco

KOBİA

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Əmanətlərin Sığortalanması Fondu

A Qroup Sığorta Şirkəti

giz

B2B Group IT & System Integration Company

Mirinşaat

Azəralüminium

Azərbaycan Respublikası Energetika Nazirliyi

yelo

WWF

code academy

Caspian Entertainment

DataPay

## Dövlət qurumları

Dövlət layihələrinin planlaşdırılması, icrası və idarə edilməsində innovativ həllər təqdim edərək, səmərəli və dayanıqlı nəticələr əldə etməyə dəstək oluruq.

# 20+

# 22+

## Maliyyə xidməti

Maliyyə təşkilatlarına məlumat təhlükəsizliyi, proseslərin sürətləndirilməsi və qanunvericiliyə uyğunluq üçün texnoloji, etibarlı və fərdiləşdirilmiş həllər təqdim edirik.

## Texnoloji şirkətlər

Texnologiya şirkətləri üçün mürəkkəb, yüksək performanslı, sürətli və miqyaslana bilən proqram təminatları hazırlayaraq innovasiya gücünüzü artırırıq.

# 12+

## Beynəlxalq təşkilatlar

Beynəlxalq standartlara və tələblərə tam uyğun rəqəmsal həllər təklif edərək beynəlxalq təşkilatların layihələrində şəffaflığı və dayanıqlılığı təmin edirik.

**6+**

**16+**

## Digər sənayelər

Fərqli sahələrdəki müştərilərimiz üçün tam fərdiləşdirilmiş proqram həlləri təqdim edərək, mövcud proseslərin rəqəmsallaşdırılması və avtomatlaşdırılmasını təmin edirik.

## Startap layihələri

İnnovativ ideyaların qısa müddətdə uğurlu rəqəmsal məhsullara çevrilməsi üçün çevik, effektiv və texnoloji dəstək təqdim edirik.

**5+**

# “Septem Tech” sosial mediada!

https://www.linkedin.com/company/septemtech/

https://www.instagram.com/septem.tech/

https://www.facebook.com/septemtech

https://www.youtube.com/@septemtech

https://www.youtube.com/@septemtech



# RƏQƏMSAL GƏLƏCƏYƏ DOĞRU!

www.septem.tech
Hacı Murad küçəsi. 1/1 Badamar Plaza
+994 99 399 12 34
info@septem.tech